*Azərbaycan dili və ədəbiyyat tədrisi*
Xüsusi buraxılış / 2025 May / 101–109
https://doi.org/10.48445/t3277-6695-1870-i

# Milli kimliyin formalaşmasında dilin funksiyası

***Sahilə İbrahimova*** [1]

**XÜLASƏ**
*İnsan həyatı və ictimai proseslər təsadüflərdən ibarət deyil. Düşünülən, hiss edilən və gözlə görünən hər iş mütləq bir səbəbə, gözlənilən nəticəyə əsaslanır. Bu mənada insanın və cəmiyyətin gələcəyi keçmişin toplanmış təcrübəsi üzərində formalaşır. Bu prosesdə təcrübə və yaddaş əsas rol oynayır. Bu iki amil nəticəsində formalaşan, insanı və ya cəmiyyəti müəyyənləşdirən anlayış isə şəxsiyyətdir. Məqalənin əsas məqsədi mədəniyyəti və tarixi olmayan, nəticədə, milli kimliyi formalaşmayan cəmiyyətin inkişafının mövcudluğuna dair bəzi tədqiqatçıların araşdırmalarını təhlil etməkdir. Müəllif məqalədə bu amillərin mövcud olmadığı təqdirdə, həm fərdlərin, həm də cəmiyyətin aciz və köməksiz vəziyyətə düşdüyünü vurğulayır. Tədqiqatın əhəmiyyəti dilin tarixi əlaqələrini və kimlik məsələsini araşdırmaqla, bu mövzulara dair qısa xronologiya təqdim etməkdir.*

**AÇAR SÖZLƏR**
*cəmiyyət, dil, kimlik, mədəniyyət, tarix*

**MƏQALƏ TARİXÇƏSİ**
Göndərilib: 21.02.2025
Qəbul edilib: 16.03.2025

[1] Filologiya üzrə fəlsəfə doktoru, baş müəllim, Azərbaycan Dövlət Pedaqoji Universiteti. Azərbaycan.
https://orcid.org/0009-0008-6960-524X | sahila.ibrahimova@yahoo.com

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0) 

*Teaching of Azerbaijani Language and Literature*
Special Issue / 2025 May / 101–109
https://doi.org/10.48445/t3277-6695-1870-i

# The Function of Language in the Formation of National Identity

***Sahila Ibrahimova*** [1]

**ABSTRACT**
*Human life and social processes are not made up of coincidences. Everything that is thought, felt and done is based on an absolute cause and an expected result. From this point of view, the future of man and society is formed on the accumulated experience of the past. Experience and memory play a key role in this process. The concept that is formed as a result of these two factors and defines a person or society is identity. The main purpose of the article is to analyze the research of some researchers on the existence of the development of a society without culture and history, and consequently, without the formation of a national identity. In the article, the author emphasizes that in the absence of these factors, both individuals and society are helpless and helpless. The importance of the study is to present a brief chronology of these topics by examining the historical relations of language and the issue of identity.*

**KEYWORDS**
*society, language, identity, culture, history*

**ARTICLE HISTORY**
Received: 21.02.2025
Accepted: 16.03.2025

---

[1] Doctor of Philosophy in Philology, Head Teacher, Azerbaijan State Pedagogical University. Azerbaijan.
https://orcid.org/0009-0008-6960-524X | sahila.ibrahimova@yahoo.com


Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

## Giriş

### Mövzunun aktuallığı

İnsanın ən üstün xüsusiyyətlərindən biri onun düşüncə və analiz qabiliyyətinin olmasıdır. Dil, fərdlərə düşünmək, bilik əldə etmək, fikirlərini ifadə etmək, keçmişi yaşatmaq, gələcəyini qurmaq və şəxsiyyətini inkişaf etdirməsinə imkan yaradır. Dil və nitq qabiliyyəti insanlara bəşəriyyət tərəfindən bəxş edilmişdir. Əvvəlki dövrlərdə kimlik məsələsi əsasən etnik mənsubiyyət və coğrafi məkan kontekstində izah olunardu, lakin günümüzdə bu yanaşma məntiqə uyğun hesab edilmir. Cəmiyyətin keçmiş həyatı, dünyaya baxışı, mədəniyyəti və digər aspektlər dil adlı "qızıl sandıq"da qorunur, istifadə edilir və gələcəyə ötürülür.

Dil, insanlığın tarix boyu yararlandığı ən ideal əlaqə vasitəsidir. Lakin o, təkcə ünsiyyət vasitəsi olmaqla kifayətlənməyib, eyni zamanda mədəni kimliyi formalaşdıran, biliklərin ötürülməsini təmin edən və düşüncənin inkişafına təsir göstərən fundamental faktordur. Çünki dil ani və məhdud ünsiyyət ehtiyaclarından başqa, xüsusilə mədəni və tarixi yaddaşın qorunması baxımından biliklərin nəsillərarası ötürülməsi və müxtəlif coğrafiyalar arasında əlaqə yaradan çoxşaxəli bir anlayışdır. Dilin zamanı aşan və cəmiyyətin həyatına birbaşa təsir edən xüsusiyyəti onun əhəmiyyətini daha da artırır. Tələffüz və forma fərqləri müşahidə olunsa da, dil, ümumiyyətlə, bütün insanlar üçün ortaq bir ünsiyyət vasitəsidir. Bu baxımdan, dil özünəməxsus xüsusiyyətlərə malik olsa da, cəmiyyətdən cəmiyyətə dəyişir, düşüncələri, hissləri və davranış fərqlərini qoruyub saxlayır.

Dilin ümumi cəhətləri ilə yanaşı, özünəməxsus xüsusiyyətləri də mövcuddur. İnsanlar yalnız mənsub olduqları dillərdə öz fikir və düşüncələrini düzgün və adekvat formada ifadə etməyi bacarırlar. Bunun üçün onların sadəcə nitqi kifayət etmir, lüğət ehtiyatı da kifayət qədər zəngin olmalıdır. Çünki insan yalnız bildiyi qədər sözlə düşünə və özünü ifadə edə bilər. Dil vasitəsilə jest və mimika kimi müxtəlif ünsiyyət formaları ilə də fikirləri ifadə etmək mümkündür.

Bundan əlavə, xalqların tarixi və coğrafi mənsubiyyəti də dilləri ilə sıx bağlıdır. Dilin mövcudluğunu qorumaq və zamanla yox olmasının qarşısını almaq üçün əsas amil, onu aktiv şəkildə istifadə edən şəxslərin mövcudluğudur. Dilin varlığı onun aktiv istifadə ehtiyacı ilə birbaşa bağlıdır və ana dilinin tədrisi yolu ilə bu ehtiyac təmin edilə bilər.

Dil, xalqların maddi və mənəvi xüsusiyyətlərinə təsir edən ən mühüm vasitədir. Bu səbəbdən, hər bir xalqın öz dilini qoruması, onu dünya dilinə çevirib gələcəyə daşıması onun həm milli məsuliyyəti, həm də vəzifəsi hesab edilir. Eyni zamanda milli kimliyin, mədəniyyətin və tarixinin özünəməxsus xüsusiyyətlərini dünyaya təqdim etmək və onları

universal bir mövqeyə gətirmək mümkündür. Bu cür yanaşma dilin kimlik, mədəniyyət və tarixlə əlaqəsi baxımından böyük əhəmiyyət kəsb edir.

Araşdırmanın əsas məqsədinə gəldikdə, qeyd etmək lazımdır ki, dil tarix boyu ən çox tədqiq edilən və müzakirə olunan mövzulardan olmuşdur. Dilə dair bütün elmi araşdırmalarda ilkin mərhələ kimi onun müəyyənləşdirilməsi və təsnif edilməsi prosesi hesab edilir. Bu tədqiqat çərçivəsində irəli sürülən əsas vəzifələr aşağıdakılardır:

- dilin tarixi inkişaf əlaqəsinin tədqiqi;
- dil və kimlik arasındakı əlaqənin araşdırılması, bu istiqamətdə irəli sürülən yanaşmaların müəyyən edilməsi və elmi əsaslarla sistemli şəkildə təhlil edilməsi.

## Metodlar

Tədqiat prosesində tədqiqatçının mövzu və araşdırma sahəsinə uyğun metod seçməsi əsas şərtlərdən biri hesab olunur. Metodologiya tətbiq olunan metodların sistemli və nəzəri təhlilini, həmçinin həmin elm sahəsi ilə bağlı prinsipləri əhatə edir. Bu çərçivədə metodologiya "elm sahəsində istifadə olunan metod prinsiplərinin, qaydalarının və şərtlərinin təhlili", "elm sahəsi daxilində tətbiq edilən və ya tətbiq oluna bilən metodların sistemli öyrənilməsi" və "metodların izahı və öyrənilməsi" kimi anlayışları özündə birləşdirir.

Aparılan araşdırmada müqayisəli və tarixi metodlardan istifadə edilmişdir. Dilin tarixi inkişafı, eləcə də türk dillərinin tarixi ilə bağlı irəli sürülən nəzəriyyələr tədqiqatın əsas predmetini təşkil edərək müxtəlif dövrlərdə və coğrafi məkanlarda formalaşan dil əlaqələri ilə müqayisəli şəkildə təhlil edilmişdir. Müqayisə əsasında aparılan təhlil, dilin inkişaf dinamikasını daha sistemli şəkildə araşdırmağa imkan vermişdir. Bundan əlavə, yerli və xarici dilçi alimlərin dil haqqında irəli sürdükləri nəzəri mülahizələr də tədqiqat çərçivəsində təhlil olunmuşdur.

## Nəticələr

Məqalədən əldə edilən nəticələrə əsasən:

- dilin tarixi əlaqəsi hər bir dilin tarixi, həmin dilin aid olduğu və əlaqə qurduğu dil qrupu və ailəsinə dair aparılmış tədqiqatın təhlilinə əsaslanmışdır.
- Azərbaycan-türk dillərinin tədqiqi iki istiqamətdə aparılmışdır. Birinci istiqamətdə ümumi olaraq ədəbi dilin üslublarının və dilin qrammatik qanunlarının inkişafı təhlil edilmişdir.
- dilin milli kimliyin qorunmasında əhəmiyyətli rol oynadığı və əsas amil olduğu vurğulanmışdır.

**Dilin tarixi əlaqəsi**

Hər bir xalqın önəm verdiyi mövzulardan biri də tarixdir, çünki hər millət öz gələcəyini keçmişi üzərində quraraq formalaşır. Bu baxımdan tarix yalnız keçmiş hadisələrlə əlaqəli deyil, həm də həyatla bağlı maddi və mənəvi xüsusiyyətləri əhatə edən daha geniş bir anlayışdır.

Dünyada heç bir dil bir gündə yaranıb inkişaf etməmişdir. Millətlərin həyatı əsrlər boyu müxtəlif inkişaf dövrlərindən keçərək, bir sıra çətinlikləri dəf edərək öz təkamül mərhələsinə çatmışdır. Hər bir dil onun doğulduğu millətin mədəni-tarixi kodlarını özündə daşıyır. Məhz bu kodlarla hər bir dilin tarixi köklərini müəyyənləşdirmək mümkündür. Bu istiqamətdə aparılan araşdırmalarda türk dillərinin tarixi kökləri və bölgüsü ilə bağlı irəli sürülən həmin fikirlərin müxtəlifliyi diqqəti cəlb edir.

İlk olaraq P. M. Melioranski yazır ki, *"Müasir türk ləhcələrinin ən yaxşı xarakteristikasını və bölgüsünü akademik V. V. Radlov vermişdir. O, türk dillərini şərqi, qərbi, Orta Asiya və cənubi hissələrə ayırır"* (Melioranskiy, 1902, s. 159). S. Y. Malov türk dillərini tarixi baxımdan bu bölgü üzrə qruplaşdırır*: "a) ən qədim türk dilləri: bulqar, uyqur (sarı uyqurlar), çuvaş, yakut; b) qədim türk dilləri: "oğuz" (qədim türk-run yazılı abidələrinin dili), tofalar, tuva, uyqur (qədim uyqur yazılı abidələrinin dili), xakas, şor: c) yeni türk dilləri: Azərbaycan, qaqauz, kumandin, qıpcaq, peçeneq, polovets, salar, türk, türkmən, uyqur (Çin və ya Şərqi-Türküstan uyqurları), özbək, cığatay, çulım; ç) ən yeni türk dilləri: başqırd, qazax, qaraqalpaq, qırğız, qumıq, noqay, oyrot (dağlıq Altay), tatar (Kazan, Qasımov, Mişar, qərbi Sibir), (çuvaş), (yakut)"* (Malov, 1951, s. 6–7).

Bu istiqamətdə aparılmış digər bir bölgüdə isə N. A. Baskakov Azərbaycan dilinin tarixi bölgüsünü müəyyənləşdirərək Azərbaycan – türk dilləri istiqamətində tədqiqat işi aparmış, həmin dilləri "*qərbi Hun qolunun oğuz qrupuna aid etmişdir. O, Azərbaycan, türkmən, truxmən, qaqauz və türk-osmanlı dillərindən müasir oğuz dilləri kimi danışır*" (Baskakov, 1960, s. 103–142).

Təbii ki, aparılan tədqiqatlar nəticəsində əldə olunan bütün bu bölgülər təxmini xarakter daşıyır. Hətta dilçilər arasında bu bölgülər üzrə mübahisələrin mövcud olduğunu vurğulasaq, aydın şəkildə qeyd etmək olar ki, alimlərin özlərinin etiraf etdiyi müəyyən fikirlərə əsasən, bu bölgülərin müəyyən aspektlərdən aparıldığını müşahidə etmək mümkündür.

Məsələn, S. Y. Malovun tədqiqatından irəli sürülən nəticəyə əsasən, *"Qərbi türk dilləri ilkinliyinə (uğursuz istilahdır) görə özlərinin ən qədim Şərqi əsillərindən o qədər də gənc deyildir"* (Malov, 1951, s. 6). Bütün bu fikirlərə isə dilçi alim Elməddin Əlibəyzadənin özünəməxsus yanaşma tərzi var. Belə ki, alimə görə, S. Malov *"çuvaş və yakut dillərini həm "ən qədim", həm də "ən yeni" türk dilləri bölgüsündə verir. Bu qayda*

*ilə Azərbaycan dilini də həm "qədim", hətta "ən qədim", həm də "yeni" türk dilləri qrupuna daxil etmək mümkündür. Müasir dilimizin izlərinin qədim türk yazılarında güclü əks olunması baxımından Azərbaycan dilini "qədim" və ya "ən qədim" türk dilləri qrupuna, dilin, xalqın və ərazinin adı ilə adlanması baxımından isə "yeni" türk dilləri qrupuna daxil etmək olar"* (Əlibəyzadə, 2007, s. 12).

İrəli sürülən bu fikirləri N. A. Baskakovun türk dillərinin bölgüsü ilə bağlı apardığı tədqiqatın nəticələrinə əsaslanaraq sübut edə bilərik. Belə ki, dilçiyə görə: *"bütün müasir oğuz dilləri mənşələrinə görə X-XI əsr oğuzlarının dillərilə əlaqədardır ki, bu da, öz növbəsində, mənşəcə qədim oğuz dilinə, yəni Yenisey-Orxon kitabələrinin dilinə gedib çıxır"* (Baskakov, 1960, s. 121).

Tədqiqat işinə digər tərəfdən yanaşsaq, qeyd edə bilərik ki, dilin tarixini iki istiqamətdə tədqiq etmək olar; ya tam halda, ya da ədəbi dilin üslublarının və dilin qrammatik qanunlarının inkişafını ayrı-ayrılıqda araşdırmaqla. Araşdırma işində dilin tədqiqinə dair aparılmış birinci istiqamət əsas götürülmüş və tədqiqat bu yöndə aparılmışdır. Alman dilçi alimi H. Paulaya görə, *"Tarixi qrammatika, köklü olaraq təsviri qrammatikalardan törəmişdir və onlardan irsən çox şey götürmüşdür. Bununla əlaqədar olaraq, o, köhnə ifadə formalarını bütövlüklə saxlamışdır... Təsviri qrammatikalar müəyyən dövrdə, müəyyən dil ümumiliyində hər bir fərdin istifadə etdiyi, süni və saxta görünməyən bütün qrammatik forma və qaydaları qeydə alır"* (Paul, 1960, s. 45).

Bir-birini tamamlayan bu proseslərin əsas səbəbi dilin insan və ictimai həyatdakı əhəmiyyəti, prioritetliyi və əvəzolunmazlığı ilə bağlıdır. Şəxsiyyətin və millətin taleyində həlledici rola malik olan dil, uyğun şəkildə qorunmalı və inkişaf etdirilməlidir. Xüsusilə ana dilində fərddən cəmiyyətə keçid etdikcə fərq daha da artır. Dilə həssas yanaşma və ona diqqət müəyyən bir münasibət forması kimi qəbul edilməlidir.

İnsan ömrü boyu bir neçə dil öyrənə bilər. Lakin körpəlikdən başlayaraq, təbii şəkildə mənimsənilən ana dili digər qazanılmış dillərdən fərqlənir. Çünki ana dili insanın ilkin şüur səviyyəsini, düşünmə, hiss etmə və anlama qabiliyyətini formalaşdıran əsas dildir. Bu baxımdan, ana dili insanın ayrılmaz bir hissəsi kimi, sanki əl, ayaq və göz qədər əsas və dəyişməz bir orqan kimi qəbul edilə bilər.

Belə böyük təsir gücünə malik olan dil, hər dövrün əsas mövzularından biri olmuşdur. Bu səbəbdən "Dil nədir? Onun cəmiyyət və fərd üzərində hansı təsiri var?" kimi suallar daim tədqiqatçıların diqqətini cəlb etmişdir.

**Dil kimliyi əlaqəsi**

Milli kimlik insanın özünəməxsusluğunun ümumiləşdirilmiş ifadəsi olduğu kimi, milli kimlik də bir millətin və ya xalqın ona məxsus xüsusiyyətlərini ehtiva edir. Milli kimlik bir millətin dilini, adət-ənənələrini, mədəniyyətini, dinini, davranışlarını və ünsiyyət tərzi-

ni özündə birləşdirir.

"*Azərbaycan dili xalqımızın tarixi keçmişi və mədəniyyətini, zəngin söz xəzinəsini, inanc və ənənələrini, əxlaqi davranışları və dünyagörüşünü özündə yaşadan, əsrlərdən əsrlərə çatdıran əvəzsiz milli sərvətdir. Ölkəmiz müstəqillik qazandıqdan sonra dövlət atributları sırasında özünəməxsus yeri və çəkisi olan ana dilimizə dövlət səviyyəsində daima yüksək qayğı göstərilmişdir. Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin dövlət dilimiz olan Azərbaycan dili haqqında dediyi aşağıdakı sözləri bu qayğının ən bariz nümunəsidir: "Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir. Bizim ən böyük sərvətimiz ondan ibarətdir ki, dilimiz yaşayıb və zənginləşibdir. Azərbaycan ədəbi dilinin saflığına daim qayğı göstərilməlidir. Çünki dil xalqın sərvətidir". Ulu öndərin Azərbaycan dili haqqında bu sözləri hər bir Azərbaycan vətəndaşını, xüsusilə də dilçilik sahəsində çalışan mütəxəssisləri ədəbi dilimizin saflığı keşiyində dayanmağa, onun düzgün şəkildə tətbiqi və inkişafı istiqamətində düşünüb-daşınmağa səsləyir"* **(**Həmidoğlu, 2023).

Milli kimlik özündə siyasi, etnik və mədəni eyniliyi ehtiva edir. Şəxsiyyət isə insanın fərdi xüsusiyyət və keyfiyyətlərini əks etdirir. Bu fərqləri araşdırmaq mövcud vəziyyətin dəyərləndirilməsinə imkan yaradır. Başqa sözlə, xalqlar arasında fərqləri müəyyənləşdirən təsnifat prosesi insanın mənsub olduğu cəmiyyəti ifadə edən şəxsiyyəti ilə əlaqələndirilməlidir. Bənövşə Məmmədovaya görə, *"İ. Q. Herderin dünyanın dil mənzərəsini araşdırmış L. P. Lobanova filosofun xalqın düşüncəsi ilə onun dili arasında, demək olar ki, bərabərlik işarəsi qoyduğunu, "hər bir millət necə danışırsa elə də düşünür, necə düşünürsə elə də danışır" – fikirni önə sürdüyünə diqqət çəkir*" (Məmmədova, 2019, s. 14).

Bu fərqi ortaya qoyan ən mühüm elementlərdən biri də dildir. İnsanlar ana dilinə sadiqliyini ifadə edir və məhz bu dil vasitəsilə özünü həmin millətin üzvü kimi hiss edirlər. Lakin bəzi xalqlar miqrasiya, sürgün siyasətləri, müharibə, başqa millətlərlə qarışıq evliliklər, assimilyasiya və digər səbəblər nəticəsində ana dillərini unudurlar. Onlar başqa dillərdə danışmağa başlayır, övladlarına da ana dillərini deyil, yeni öyrəndikləri dili öyrədirlər. Beləliklə, zaman keçdikcə, özlərini hansı millətə mənsub hesab etmələrindən asılı olmayaraq, nəsilləri, mənşəyi haqqında məlumatlı olsalar da, yeni dil ətrafında formalaşan cəmiyyətin bir hissəsinə çevrilir və nəticədə, tamamilə assimilyasiyaya uğrayırlar.

Cəmiyyətləri dil vasitəsilə dəyişdirmək hər dövr üçün uğurlu proses olmasa da, bəzi hallarda müəyyən məqsədlərə uyğun olaraq dilə dair mühüm dəyişikliklər həyata keçirilir. Bu dəyişikliklər cəmiyyətin həyat baxışını və həyat tərzini yeni ölçülər və formalara uyğun şəkildə formalaşdırır. Zaman keçdikcə yeni nəsil əvvəlki nəsillərin dil və

mədəniyyət köklərini unuda bilər. Bu da onların milli və mədəni kimliyinin dəyişməsinə səbəb ola bilər. Dilin kimliyinin milli dil kimliyi ilə əlaqəli şəkildə olduğunu vurğulayan V. F. Humboldta görə, *"Əgər dil şairlərə öz sənətində ustalıq nümayiş etdirməkdə maneçilik törədirsə, bu o deməkdir ki, millət, xalq onun bədii kamilliyinin nədən ibarət olunduğunun fərqinə varmır, bilmir. Bu, o deməkdir ki, həmin xalq və həmin dil hələ poeziyanın yüksək üslubundan uzaqdır və, deməli, hələ xalq onun (dilin) xeyirli, faydalı "məhsullarından" öz mədəniyyətinin inkişafı və xarakterinin (milli ruhunun, milli xarakterinin – B. M.) təşəkkülü naminə istifadə edə bilməyəcəkdir"* (Humbolt, 1985, s. 181).

Dil hər bir cəmiyyət üçün əsas amil olub, həmin cəmiyyətin birləşdirici qüvvəsi kimi fəaliyyət göstərir, tarixi, mədəni, sosial, siyasi və digər aspektlərdə cəmiyyətin mövcudluğunu və inkişafını təmin edir.

**Nəticə**

İnsanlar yaşam boyu davamlı təcrübə prosesindən keçirlər. Təcrübələrdən öyrənmək həm fərdi, həm də sosial bir hadisədir; insanın və cəmiyyətin təcrübə toplaması da bu prosesin tərkib hissəsidir. Həyat təcrübəsini ümumiləşdirən bir sıra amillər mövcuddur ki, bunlar arasında mədəniyyət, tarix və kimlik xüsusi əhəmiyyətə malikdir. Bu anlayışlar bir-birini tamamlayaraq insanların şəxsiyyətini formalaşdırır və cəmiyyətin strukturunu müəyyənləşdirir. Bu elementlərin qorunması və gələcək nəsillərə ötürülməsi isə, əsasən, dil vasitəsilə mümkündür. Dil, informasiya mübadiləsini təmin edən ən mühüm vasitədir. Professor M. Nağısoylu (2019) bu barədə deyir: *"Dil, o dildə danışan sonuncu adam qalanacan ölməz. Amma milli kimliyi ifadə etdiyi üçün dilin siyasi-ictimai-elmi-mədəni mövqelərini itirməsi milli identikləşməyə ekzistensial problemlər yarada bilir"*.

Nəticə etibarilə, insanın öz milli kimliyini qorumağının əsas şərtlərindən biri öz ana dilində danışması və onu qoruyub müdafiə etməsidir. Dil vasitəsilə insanlar maddi və mənəvi biliklər əldə edərək onları nəsildən-nəslə ötürə bilərlər. Buna görə də hər bir fərdin öz ana dilini düzgün öyrənməsi və ondan düzgün istifadə etməsi mühüm əhəmiyyət kəsb edir. Dilin natamam istifadəsi dominant mədəniyyətlər qarşısında fərdin assimilyasiyasını sürətləndirir və bu, gələcək nəsillərin milli kimliklərini və özünə inamlarını itirməsinə səbəb ola bilər.

Dilin qorunması eyni zamanda millətin və onun mədəni irsinin qorunması deməkdir. Çünki dil, bir xalqın mədəniyyətinin, tarixinin və kimliyinin əsas təməlidir. Bu səbəbdən milli şüurun və mədəni irsin qorunmasına yönəlmiş siyasətlər həyata keçirən cəmiyyətlər öz dəyərləri ilə varlıqlarını qoruyaraq qlobal inteqrasiyada fəal rol oynayırlar. Beləliklə, dilin qorunması və inkişaf etdirilməsi həm milli, həm də qlobal səviyyədə davamlı inkişafı

təmin edən mühüm bir amil olaraq dəyərləndirilir.

### Ədəbiyyat

1. Əlibəyzadə, E. (2007). *Azərbaycan dilinin tarixi*. 2 cild. Azərbaycan Tərcümə Mərkəzi.
2. Həmidoğlu, Q. (2023, 02 yanvar). Dilimiz, kimliyimiz və "rus aləmi". *Mədəniyyət*. https://www.anl.az/down/meqale/525/2019/fevral/636530.htm
3. Məmmədova, B. (2019). "Dil kimliyi" ideyasının aparıcı fəlsəfi konsepsiyalarla korrelyasiyasına dair (klassik alman fəlsəfəsindən strukturalizmə qədər). *Dil və ədəbiyyat*. IX cild.
4. *Metodologiya*. https://az.wikipedia.org/wiki/Metodologiya
5. Nağısoylu, M. (2019, 21 fevral). Ana dilimiz: millətin varlığı və qürur mənbəyi. *525-ci qəzet*, 4–6.
6. Baskakov, N. A. (1960). *Tyurkskiye yazyki*.
7. Gumboldt, f. V. (1985). *Yazyk i filosofiya kul'tury*. Progress.
8. Malov, S. Ye. (1951). *Pamyatniki drevnetyurkskoy pismennosti*.
9. Melioranskiy, P. M. (1902). *Turetskaya narechiya i literatura*. *Entsiklopedicheskiy slovar'*. Izd. F. A. Brakgauz, I. A. Yefron.
10. Paul, G. (1960). *Printsipy istoriy yazyka*.